Xalq qəzeti

# Ağalıda ilk kitab təqdimatı



**“Böyük Qayıdış”ın rəmzinə çevrilmiş Zəngilan rayonunun Ağalı kəndində daha bir ilkə imza atılıb: kənd tam orta məktəbində gənc şair, AYB-nin üzvü, Prezident mükafatçısı Elvin Əlizadənin “-29” adlı şeirlər kitabının imza günü keçirilib.**

Zəngilanın tanınmış ziyalısı Ceyhun Həsənov tədbiri açaraq əslən bu kənddən olan müəllifin həyat və yaradıcılığı barədə məlumat verib. Sonra Azərbaycan Yazıçılar Birliyinin mətbuat katibi, şair Xəyal Rza Şərqi Zəngəzurun Azərbaycan ədəbi mühitinə bəxş etdiyi şəxslərdən, ölkənin ictimai həyatındakı əhəmiyyətindən söz açıb və təqdim olunan kitabın bədii məziyyətlərindən danışıb.

Tanınmış yazıçı Əyyub Qiyas 29 il Sumqayıtda məcburi köçkün həyatı yaşamış ailənin övladı olan Elvin Əlizadənin vətənpərvərlik mövzusunda qələmə aldığı əsərlərdən söz açıb və onun “Zəngilan” şeirini səsləndirib. Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Sumqayıt Şəhər Komitəsinin sədri Şahin Şəfiyev, şairin qələm dostları Vüqar Rahi və Babək Məmmədli yeni kitab haqqında fikirlərini oxucularla bölüşüblər. Tanınmış xanəndə, "Xalq ulduzu" yarışmasının qalibi Tural Salmanovun müəllifin şeirlərinə bəstələdiyi mahnıları ifa etməsi də maraqla qarşılanıb.

Daha sonra çıxış edən Ağalı kənd sakini Nurəddin Əliyev oğlu Elvinin yeni kitabının təqdimatına qatılan qonaqlara və həmkəndlilərinə minnətdarlığını bildirib. Elvin Əlizadə isə 2021-ci ilin aprelində ilk “Ağıllı kənd” layihəsinin dövlətimizin başçısı tərəfindən təməlqoyma mərasimində iştirakını xatırlayıb və yeni şeirlərini həmyerlilərinə ərməğan edib.

Tədbirin sonunda yeni nəşrin müəllif imzası ilə nüsxələri oxuculara paylanıb, qonaqlar da öz kitablarını Ağalı kənd tam orta məktəbinin kitabxanasına hədiyyə ediblər.

***Ə.ƏLİYEV***
***XQ***